# Azərbaycanla şantaj dilində danışmaq mümkün deyil

**"Azərbaycan Hava Yolları"na məxsus "Embraer-190" tipli sərnişin təyyarəsinin Rusiya hava məkanında vurulması və bu səbəbdən qəzaya uğraması artıq faktlarla öz təsdiqini tapıb. Bu barədə açıqlanan ilkin hesabatda yer alan sübutlar, hava gəmisinin füzelyajında çoxsaylı dəlib keçən və kor zədələrin olması təyyarənin vurulduğunu aydın şəkildə təsdiq edir.**







Lakin təəssüflə qeyd olunmalıdır ki, Rusiya bunu etiraf etmək və bu cür halların ümumi tələbinə uyğun davranış ortaya qoymaq əvəzinə şantaj yolunu seçib. Söhbət ondan gedir ki, Azərbaycanın təyyarənin vurulmasına görə haqlı tələbləri qarşısında cavab tapa bilməyən Rusiyada Dövlət Dumasının deputatlarının dili ilə bu ölkədə yaşayan və işləyən azərbaycanlılarla bağlı şantaj dolu fikirlər səsləndirilməyə başlanılıb. Məsələn, KİV-də yayılan məlumatlara əsasən, Dövlət Dumasının "Yedinaya Rossiya" Partiyasından olan deputatı Nikolay Valuyev Rusiyadakı Azərbaycan diaspor təşkilatlarının qapadılması, azərbaycanlıların biznesinin məhdudlaşdırılması, bu ölkə ərazisində qanuni yaşayan soydaşlarımızın hərbi uçota götürülməsi və cəbhəyə göndərilməsi kimi iddialarla çıxış edib.

Təxminən eyniməzmunlu fikirlərlə Dövlət Dumasının digər deputatları Yevgeni Popov və Andrey Pinçuk da çıxış edərək sərsəm iddialar irəli sürüblər. Aydın məsələdir ki, bu təkliflərin heç biri onların beyninin məhsulu deyil. Bu adamlar yuxarıdan gələn təlimat və tezislər əsasında belə çıxışlar edirlər. Təyyarə ilə bağlı məsələdə günahını etiraf etmək istəməyən Rusiya həm də "Rossotrudniçestvo" Agentliyinin fəaliyyətinin dayandırılmasına görə şantaja keçib.

Bu o Rusiyadır ki, hələ ötən əsrin 90-cı illərinin əvvəllərində torpaqlarımızın Ermənistan tərəfindən işğalında birbaşa rol oynamışdı. Rusiyanın hərbi dəstəyi olmasaydı, Ermənistan Azərbaycan ərazilərini işğal edə bilməzdi. Hardaydı ermənidə o güc ki, torpaqlarımızı işğal etsin. Üstəlik, Rusiyanın hər zaman Ermənistana hərbi yardım etdiyi də faktlarla sübuta yetirilib. Bu ölkə müharibə cəlladları olan R.Koçaryan və S.Sarqsyanın prezidentlikləri dövründə hər zaman onlara dəstək verib.

Vətən müharibəsi günlərində də Rusiyanın Ermənistana hərbi dəstək göstərdiyi məlum idi. Rusiyadan Ermənistana hərbi sursat aparan təyyarələrin marşrutu da o zaman deşifrə olunmuşdu. Hətta sərnişin təyyarələrində Rusiyadan Ermənistana silah daşınırdı. Və əgər Rusiya olmasaydı, Azərbaycan Qarabağdakı erməni separatizmini elə Vətən müharibəsi dövründə məhv edərdi. Vətən müharibəsindən sonra Rusiya sülhməramlılarının Qarabağda təxribatçı fəaliyyətlə məşğul olduqları, Ermənistandan ərazilərimizə silah daşınmasına kömək etmələri, separatçıların "bayrağını" qaldırmaları, "rus icması" yaratmaları unudulmayıb.

Bütün bunları edən Rusiya AZAL-a məxsus təyyarəni vurmasına görə günahını boynuna alıb üzr istəmək əvəzinə şantajçı simasını ortaya qoyur, Azərbaycanın haqlı tələblərinə görə ölkəmizi şantaj edir. Amma unudur ki, yürütdüyü elə bu cür siyasətin nəticəsi olaraq dostlarını və müttəfiqlərini itirir. Bu ölkənin rəsmiləri anlamalıdırlar ki, dünya əvvəlki dünya deyil və heç bir dövlət Rusiyanın təhdidləri, şantajları qarşısında geri çəkilmir.

Rusiyanın bu cür qeyri-adekvat, qonşuluq və müttəfiqlik prinsipləri ilə ziddiyət yaradan davranışlarını Azərbaycan da heç vaxt qəbul etməyəcək. Azərbaycanla şantaj dilində danışmaq mümkün deyil və ölkəmiz prinsipial və qətiyyətli mövqeyindən bundan sonra da çəkinməyəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

Azərbaycan. - 2025.- 8 fevral (№ 28).- S.4.